UOT 94 (479.24)
https://doi.org/10.59849/2710-0820.2026.1.11

**İsmayıl Hacıyev**
*AMEA Naxçıvan Bölməsinin sədri, akademik*
*haciyev.i1951@gmail.com*

# PREZİDENT İLHAM ƏLİYEV VƏ AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİ BÜTÖVLÜYÜNÜN TƏMİN EDİLMƏSİ

*Məqalədə XX əsrin 90-cı illərində keçmiş SSR-də yaranmış şəraitdən, Sovetlər Birliyi rəhbərinin ikili siyasəti və Ermənistanı dəstəkləməsi sayəsində Azərbaycan ərazisinin 20 faizinin – Dağlıq Qarabağın və onun ətrafındakı 7 rayonun Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi faktik materiallar əsasında verilmişdir.*

*Azərbaycan ərazilərinin işğal edilməsinin başqa bir səbəbi kimi respublikada yaranmış şərait – hakimiyyət uğrunda mübarizə, ordu quruculuğuna lazımi diqqət yetirilməməsi, özünümüdafiə dəstələrinə dövlət səviyyəsində köməyin göstərilməməsi və başqa amillər qeyd edilmişdir.*

*Ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsindən sonra atəşkəsin əldə edilməsi, beynəlxalq təşkilatlarla aparılan danışıqlar, BMT Təhlükəsizlik Şurası və ATƏT-in Minsk qrupunun mövqeyinin artırılması istiqamətində Azərbaycan rəhbərinin fəaliyyəti əsaslandırılmışdır.*

*İlham Əliyevin Prezident seçilməsindən sonra aparılan danışıqların artırılması, işğal olunmuş ərazilərimizin azad edilməsi istiqamətində onun qəti mövqeyi, beynəlxalq təşkilat və qurumlarda, müxtəlif beynəlxalq tədbirlərdəki çıxışları, ordu quruculuğunun artırılması, sülh yolu baş tutmazsa başqa yollardan istifadə edilməsi kimi məsələlər də araşdırılmışdır. Burada II Qarabağ müharibəsi, lokal anti-terror əməliyyatı, ərazi bütövlüyünün və suverenliyinin əldə edilməsi, Birinci Dövlət Proqramı istiqamətində görülmüş işlərdən də bəhs edilmişdir.*

***Açar sözlər:*** *Azərbaycan, işğal edilmiş ərazilər, Heydər Əliyev, İlham Əliyev, BMT Təhlükəsizlik Şurası, ATƏT-in Minsk qrupu, beynəlxalq təşkilatlar*

## Giriş

Azərbaycan xalqı yaşadığı ərazinin qorunub saxlanılması uğrunda əsrlərlə mübarizə aparmış və özünün dövlətçilik tarixini yaratmışdır. Lakin tarixin müxtəlif mərhələlərində ərazimiz böyük dövlətlərin işğalına da məruz qalmışdır. XIX əsrin əvvəllərində Azərbaycan ərazisi uğrunda çar Rusiyası və Qacarlar İranı arasında iki mərhələdə müharibə aparılmış, Azərbaycanın şimal ərazisi çar Rusiyası tərəfindən işğal edilmişdir. 310 min kvadrat kilometr ərazisi olan ölkəmizin Azərbaycanın Xalq Cümhuriyyəti dövründə 114 min kvadrat kilometr ərazisi qalmışdır. Sovet Azərbaycanı dövründə isə 30 min kvadrat kilometrə qədər ərazi itirilmişdir. Bu ərazilərin böyük bir qismi 1918-ci ilin may ayında yaradılmış Ararat Respublikası (Ermənistan) tərəfindən işğal edilmişdir. Bu proseslər ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gələnə qədər bu və ya digər formada davam etmişdir. 1938-ci ildə Azərbaycanın 2 min hektar ərazisinin Ermənistan Respublikasına verilməsi haqqında rəsmi qərar olsa da Heydər Əliyev 1969-cu ilin iyulunda Azərbaycana rəhbər seçilməsi ilə buna yol verməmişdir. Hətta Moskvanın təzyiqlərinə baxmayaraq Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycan torpaqlarının itirilməsi halları olmamışdır.

XX əsrin 20-ci illərində Ermənistan sovet rəhbərlərinin köməyindən istifadə edərək Qarabağın dağlıq hissəsinin Ermənistana birləşdirilməsi üçün ciddi səy göstərmiş, RK (b)P Qafqaz bürosunun köməyinə arxalansa da, N.Nərimanovun qəti mövqeyi sayəsində məqsədlərinə nail ola bilməmişlər. Belə olan halda, ermənilər Qarabağ ərazisində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasına nail olmuşlar. Ulu öndər sonradan bunu Azərbaycanın altına qoyulmuş mina kimi xarakterizə etmişdir ki, bu mina nə vaxtsa partlamalı idi.

XX əsrin 80-ci illərinin sonlarına yaxın, 1987-ci ilin oktyabrında ulu öndər Heydər Əli-

yevin Sovet rəhbərliyindən istefa verməsindən sonra ermənilərin Azərbaycana qarşı ərazi iddiaları artmışdır. Bu işdə onlara dəstək verən SSRİ-nin Ali rəhbərliyi olmuşdur. Heydər Əliyevin istefasından sonra ermənilərin torpaq-ərazi iddiaları başlanmışdır. 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində Azərbaycan xalqı ərazi uğrunda mərdi-mərdanə, qətiyyətlə mübarizəyə qalxsa da, biz bunu Azərbaycan rəhbərliyinin fəaliyyətində görmədik. Hakimiyyət strukturlarına rəhbərlik edənlərin səriştəsizliyi, milli mövqedən çıxış etməmələri, AXC-Müsavat cütlüyü nümayəndələrinin kreslo davası, ordu quruculuğuna lazımi diqqət yetirməmələri ucbatından nəinki Dağlıq Qarabağ ərazisi, hətta onun ətrafındakı 7 rayon da, hansı ki, bu rayonlarda ermənilər yaşamamışdı – işğal olundu. Soydaşlarımızdan çoxsaylı ölən, yaralanan, qaçqın və məcburi köçkünə çevrilən oldu. Müxalifət cəbhəsində baş verən qarşıdurmalar, orduda birliyin, vahid komandanlığın olmaması ölkəmizi çətin vəziyyətə saldı.

Xalqımız baş verən hadisələrin qarşısının alınmasının xilas yolunu təcrübəli və görkəmli dövlət xadimi Heydər Əliyevdə görürdü. Buna görə də 91 nəfər Azərbaycan ziyalısı Heydər Əliyevə müraciət etdi. O dövrdə Azərbaycan Prezidenti olan Ə.Elçibəy də Heydər Əliyevi hakimiyyətə dəvət etməyə məcbur oldu.

Heydər Əliyev 1993-cü il iyunun 15-də Ali Sovetin sədri seçildi. 1994-cü ilin may ayında atəşkəsə nail olundu. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" imzalandı. 1995-ci ilin noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi. Dövlət quruculuğu sahəsində, iqtisadi inkişafda uğurlar əldə edilməyə başlanıldı. Heydər Əliyevin Azərbaycana ikinci rəhbərliyi dövründə sabitlik və iqtisadi inkişaf təmin edildi. Ulu öndər rəsmi tədbirlərdə, qaçqın və köçkünlərlə görüşlərində dəfələrlə elan etdi ki, "nəyin bahasına olursa-olsun itirilən torpaqlarımızı geri qaytaracaq, siz öz ata-baba yurdunuza qayıdacaqsınız. Buna heç kimin şübhəsi olmasın".

**BMT Təhlükəsizlik Şurasının qətnamələri**

2003-cü ilin sonunda İlham Əliyev Azərbaycan rəhbərliyinə gəldi, ölkə Prezidenti seçildi. İlham Əliyev Prezident kimi ilk andiçmə mərasimindəki nitqində bəyan etdi: *"Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyondan artıq qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını, nəyin bahasına olursa-olsun, azad edəcəkdir"*[7, s.10].

Prezident İlham Əliyev Heydər Əliyev siyasi kursunu əsas götürərək ölkəni idarə etməyə başladı, qazanılan uğurlara arxalanaraq yeni şəraitdə ölkəni müasirləşdirmək, xalqdan güc almaq, xalqının və dövlətinin maraqlarını mövcud şəraitdə ən yaxşı şəkildə qorumaq, başlıca məqsəd olan torpaqları təcavüzkar Ermənistanın işğalından azad etməkdən ötrü hazırlaşmaq idi.

İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan Respublikasında daxili siyasətdə - dövlət idarəçiliyində, ictimai-siyasi, iqtisadi, mədəni həyatda müstəsna əhəmiyyət daşıyan işlər görüldü. Azərbaycan müasirləşən ölkəyə çevrildi.

Bu illərdə daxili siyasətlə yanaşı, Azərbaycan Respublikası dövlətinin xarici siyasət fəaliyyətində də müstəsna əhəmiyyətli işlər görüldü. Nəticədə dövlətin beynəlxalq mövqeləri möhkəmləndirildi. Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi üçün mübarizədə BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi - 30 aprel 1993-cü il tarixli 822 saylı, 29 iyul 1993-cü il tarixli 853 saylı, 14 oktyabr 1993-cü il tarixli 874 saylı, 11 noyabr 1993-cü il tarixli 884 saylı qətnamələrinə əsaslanırdı [13, s.310, 376, 424-426]. Həmin qətnamələrə görə, Ermənistan işğal etdiyi Azərbaycan ərazisindən öz hərbi hissələrini qeyd-şərtsiz, tam və dərhal çıxarılması tələb olunurdu.

İlham Əliyev hələ Baş nazir olarkən 2003-cü il sentyabrın 24-də BMT Assambleyasında etdiyi nitqində Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin yerinə yetirilməsindən danışarkən demişdi: *"Təhlükəsizlik Şurasının 4 qətnamə qəbul etməsindən artıq 10 il keçir. Bu qətnamələr erməni işğalçı qüvvələrinin Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxmasını tələb edir.*

*Bununla belə, Ermənistan bu qətnamələri saymazlığı ilə beynəlxalq icmaya meydan oxuyur. BMT Təhlükəsizlik Şurası və ATƏT-in Minsk qrupu isə bununla bağlı heç bir adekvat qərar qəbul etmirlər.*

*Azərbaycan beynəlxalq hüquq normalarına və prinsiplərinə əsasən münaqişənin sülh yolu ilə həllinə tərəfdar olduğunu dəfələrlə bildiribdir. Biz bu yöndə səylərimizi davam etdirməkdə israrlıyıq və beynəlxalq icmanın fəal iştirakına ümid edirik"* [16, s.79].

**Beynəlxalq qurumlarda inadlı mübarizə**

İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti vəzifəsində BMT Baş Assambleyasının 2004-cü ilin sentyabrında keçirilən 59-cu sessiyasında da nitq söyləyərək Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamənin hələ də yerinə yetirilmədiyini bəyan etdi. Azərbaycan rəhbəri nitqində ATƏT-in Minsk qrupunun fəaliyyətini də kəskin tənqid etdi: "*Münaqişənin siyasi yolla həlli prosesi son 12 il ərzində ATƏT-in Minsk qrupu çərçivəsində həyata keçirilmiş, lakin bu günədək heç bir nəticə verməmişdir. Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsi, vəziyyətin yerində qiymətləndirilməsi və Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən həyata keçirilən qeyri-qanuni fəaliyyət məsələlərinə ATƏT-in Minsk qrupu ciddi diqqət yetirməmişdir. Aydın məsələdir ki, BMT Təhlükəsizlik Şurasının, ATƏT və onun Minsk qrupunun problemə hazırkı passiv və biganə yanaşması və beynəlxalq birlik tərəfindən ciddi təzyiqin göstərilmədiyi indiki şəraitdə Ermənistan özünün təcavüzkar və destruktiv mövqeyindən geri çəkilməyəcəkdir"* [9, s.131].

2004-cü ildən başlayaraq İlham Əliyev təklif edirdi ki, münaqişənin nizama salınması prosesində əsas vasitəçi olan ATƏT-in Minsk qrupu ilə yanaşı, digər beynəlxalq qurumlar – ATƏT-in Parlament Assambleyası, Avropa Şurası və Avropa İttifaqının da fəaliyyəti gücləndirilsin.

Prezident İlham Əliyevin Avropa Şurasının Parlament Assambleyasının yaz sessiyasındakı çıxışı (2004, 29 aprel) böyük əks-sədaya səbəb oldu: *"...Əlbəttə ki, biz bu vəziyyətlə barışa bilmərik. Azərbaycan heç zaman ərazisinin itirilməsi ilə razılaşmayacaqdır. Məsələnin həllində beynəlxalq hüquq normaları əsas götürülməlidir. Azərbaycan dünyadakı bütün ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşır və özünə də eyni münasibətlə yanaşmağı tələb edir. Bizim ərazi bütövlüyümüz bərpa olunmalıdır. Ermənistanın işğalçı qüvvələri zəbt olunmuş ərazilərindən geri çəkilməlidir"* [5, s.227].

BMT-nin Baş Məclisinin 29 oktyabr 2004-cü il sessiyasında Azərbaycan nümayəndə heyətinin təşəbbüsü ilə "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı əlavə maddəni iclasın gündəliyinə daxil etməyi qərara almışdır. Qərar qəbul edildikdə 43 dövlət lehinə, 1 dövlət (Ermənistan) əleyhinə səs vermiş, 99 dövlət bitərəf qalmışdır [5, s.230].

Prezident İlham Əliyevin "Azərbaycan torpaqları işğal altında qalmamalıdır" tələbi artıq müzakirə olunan bir sıra tədbirlərdə açıq-aşkar deyilirdi. Belə ki, ASPA-da "ATƏT-in Minsk Konfransının məşğul olduğu Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə" adlı məruzənin (2005, 25 yanvar) 1416 saylı Qətnamə hissəsində Azərbaycan ərazisinin böyük bir hissəsinin Ermənistan qoşunlarının işğalı altında olduğu, eləcə də Dağlıq Qarabağ regionuna hələ də separatçı qüvvələrin nəzarət etdiyi göstərilirdi. Bununla yanaşı, sənəddə qeyd edilirdi ki, "Avropa Şurasının üzvü olan bir ölkənin başqa ölkənin ərazilərini işğal altında saxlaması həmin ölkənin öz üzərinə götürdüyü öhdəliklərə açıq-aşkar ziddir" [5, s.231]. Assambleya öz yerlərindən qaçqın düşmüş insanların geri qaytarılması hüququnu bir daha təsdiqləyirdi.

Azərbaycan lideri ATƏT-in Minsk qrupu həmsədrlərinin, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndələrinin, NATO üzvü olan ölkələrin dövlət və hökumət başçılarının iştirakı ilə keçirilən Zirvə toplantılarında, bir sıra ölkələrin kütləvi informasiya vasitələrinə verdiyi müsahibələrdə dəfələrlə bildirmişdir ki, Dağlıq Qarabağ Azərbaycanın ərazisidir, eləcə də Azərbaycanın ərazi bütövlüyü BMT və bütün beynəlxalq birlik tərəfindən tanınmışdır. Buna görə də münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Ermənilər bir sıra tədbirlərdə "öz müqəddəratını təyin etmək" prinsipini "ərazi bütövlüyünün bərpası" prinsi-

pini qarşı-qarşıya qoyur və üstünlüyü birinci prinsipə verirdilər.

Azərbaycanın dövlət rəhbəri ermənilərin "öz müqəddəratını təyin etmək" hüququna münasibətini dəfəlrlə bildirmişdir: *"Ermənilər artıq öz müqəddəratını təyin ediblər. İndi isə onlar çalışırlar ki, bu iki prinsipi - ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə prinsiplərini bir-biri ilə ziddiyyətə gətirsinlər. Erməni xalqı öz müqəddəratını artıq təyin edibdir, Ermənistan dövləti var. Əgər bu baxımdan, bu məntiqdən yanaşsaq, yəni onların məntiqini götürsək, onda dünyada nə qədər erməni dövlətləri yaranmalıdır? Çünki onlar bir çox ölkələrdə yaşayırlar. Əgər Dağlıq Qarabağda digər erməni dövləti yaratsalar, onda sabah onlar istəyəcəklər ki, Gürcüstanda da belə bir dövlət yaransın. Hətta deyim ki, Dağlıq Qarabağda yaşayan ermənilərin sayı Gürcüstanda yaşayan ermənilərin sayından 4 dəfə azdır..."* [5, s.241].

Ermənistanın beynəlxalq hüquqa zidd fəaliyyətlərini Prezident İlham Əliyev 2010-cu ilin sentyabrında Baş Assambleyanın 65-ci sessiyasında etdiyi nitqində bir daha diqqətə çatdırdı.

**Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi**

Prezident İlham Əliyevin qətiyyətli mövqeyi, ölkəmizin maraqlarını, ərazi bütövlüyünü israrla müdafiə etməsi öz nəticəsini göstərdi. 2011-ci il oktyabrın 24-də 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi onun dünya miqyasında nüfuzunun əsas göstəricilərindən biri oldu. İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində Azərbaycan 2019-cu ilin oktyabrında 2011-ci ilin may ayında üzvülüyünə qəbul olunduğu, BMT-dən sonra ikinci böyük təşkilat olan Qoşulmama hərəkatının sədrliyini qəbul etdi. Bu hərəkat İkinci Qarabağ müharibəsi dövründə Azərbaycana qarşı beynəlxalq diplomatik dəstəyin təmin edilməsində böyük rola malik oldu. Azərbaycan Respublikası 193 dövlətdən 155-nin səsini alaraq BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi [2, s.103; 10, s.176-177].

Bu faktın özü Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun göstəricisi idi ki, bu nüfuzu Prezident İlham Əliyev qazandırmışdı. Təhlükəsizlik Şurasının iclaslarına sədrlik etməsi və nitq söyləməsi, müzakirə olunan məsələlər haqqında obyektiv təhlillər aparması Prezident İlham Əliyevin nüfuzuna təsir edən və onun dünya miqyasında böyük hörmət qazanmasının göstəricisi idi.

Prezident İlham Əliyev beynəlxalq tədbirlərdə Azərbaycanın işğal edilmiş ərazilərinin azad edilməsi, Ermənistanın beynəlxalq hüquqa əməl etməməsi, işğal etdiyi Azərbaycan ərazilərini azad etməməsi, BMT-nin, ATƏT-in Minsk qrupunun tutduğu mövqeləri barədə dəfələrlə çıxış etmiş, haqq işimizi qətiyyətlə müdafiə etmişdir. Azərbaycan və Ermənistan prezidentlərinin 2008-ci il iyunun 6-da Sankt-Peterburq, noyabrın 2-də Moskva, 2009-cu il yanvarın 28-də Sürix görüşlərində aparılan danışıqların heç bir nəticəsi olmamışdır [5, s.253, 255, 259]. Ona görə də dövlət başçısı İlham Əliyev münaqişənin nizama salınması istiqamətində aparılan danışıqlar prosesi haqqında bildirirdi: *"Biz danışıqları sadəcə olaraq danişıqlar naminə aparmayacağıq. Danışıqların imitasiya ilə məşğul olmaq üçün Ermənistana imkan verməyəcəyik. Biz o vaxta qədər danışıqlar aparacağıq ki, ərazi bütövlüyümüzü bu yolla bərpa edə biləcəyimizə ümidimiz qalacaqdır. Əgər görsək ki, bu mümkün deyil, onda Azərbaycan dövləti hərbi yoldan istifadə edərək, öz ərazi bütövlüyünü bərpa edəcəkdir..."* [5, s.275].

**Azərbaycan ərazilərinin azad edilməsi zəruriliyi**

2010-cu ilin yanvar ayının 25-də Soçidə keçirilən görüşdə münaqişənin nizama salınması istiqamətində danışıqlar ATƏT-in Minsk qrupu həmsədrlərinin 2009-cu ilin dekabr ayında təklif etdiyi yenilənmiş Madrid prinsipləri əsasında aparılmışdır. Azərbaycan tərəfi prinsip etibarı ilə verilən təklifi qəbul etsə də, Ermənistan tərəfindən münasibət bildirilməmişdir. Prezident İlham Əliyevin 2010-cu il 7 noyabr çıxışında Azərbaycanın ərazi bütövlüyünün heç vaxt aparılan danışıqların mövzusu olmadığını və bundan sonra da olmayacağını bildirmiş, ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyini bəyan etmişdir [2, s.194].

ATƏT-in Minsk qrupunun həmsədrləri ilə aparılan danışıqlarda bir neçə layihə ortaya çıxmışdı. Bu layihələrin bəziləri Azərbaycanın əleyhinə idi, əgər onlar həyata keçsə idi ölkəmizin müəyyən əraziləri itiriləcək, Dağlıq Qara-

bağ və onun ətrafındakı 7 rayonun bəzilərinin ərazi məsələsinin həllində problemlər yaranacaqdır. Həmsədrlər məsələni həll etmək yox, onu yubatmaq və Ermənistanın xeyrinə həll etmək istəyirdilər. Həm ümummilli lider Heydər Əliyev, həm də İlham Əliyev apardıqları danışıqlarda qətiyyətlə həmsədrlərə, beynəlxalq təşkilatların rəhbər və nümayəndələrinə, bir sıra dövlət rəhbərlərinə çatdırırdılar ki, işğal altında olan Azərbaycan əraziləri hansı yolla olursa-olsun azad ediləcəkdir. Minsk qrupunun həmsədrləri isə belə bir fikir formalaşdırırdılar ki, torpaqların azad edilməsinin hərbi yolu yoxdur, bu məsələ ancaq sülh yolu ilə həll edilə bilər [5, s.254]. Sülh danışıqları isə uzadılır və heç bir nəticəsi olmurdu.

Prezident İlham Əliyev ölkənin iqtisadi potensialı ilə yanaşı, hərbi imkanlarını artırır, ordu quruculuğuna, onun hərbi potensialının artırılmasına xüsusi diqqət yetirirdi.

**Tarixi missiyaya hazırlıq**

Ərazi bütövlüyünün pozulduğu və torpaqlarımızın uzun müddət təcavüzkar işğalı altında olduğu dövrdə Azərbaycan öz dövlət büdcəsinin böyük bir hissəsini hərbi xərclərə yönəltməyə məcbur idi. Dövlətimizin hərbi büdcəsi Milli Ordumuzun ən yeni hərbi texnika, silah-sursat və digər döyüş vasitələri ilə təchiz edilməsinə sərf olunurdu. 2022-ci ildə Azərbaycanın hərbi xərcləri 4,5 milyard dollara çatmışdı [14, 2023, 28 sentyabr]. NATO standartlarına uyğun şəkildə təlim keçmiş Milli Orduya malik olan Azərbaycan Cənubi Qafqazda hərbi qüdrətinə görə lider dövlət səviyyəsinə yüksəlmişdi.

Azərbaycan öz ordusunun silah və hərbi texnika ilə təchizat sahəsində xarici dövlətlərdən asılılığı azaltmaq üçün milli hərbi sənaye sahəsini formalaşdırmağa başlamışdır. 2005-ci ildən yaradılan Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində yüzlərlə adda hərbi təyinatlı silah-sursat və texnika istehsal edilməyə başlanılmışdı. Azərbaycan region ölkələri arasında öz zirehli texnikasını istehsal edən ilk dövlət idi.

Respublikamız ötən illər ərzində çoxlu sayda döyüş təyyarəsi və helikopterlər, yeni nəsil döyüş texnikası hesab edilən pilotsuz aparatları alaraq çox güclü Hərbi Hava Qüvvələrini formalaşdırdı. Nəticədə Azərbaycan regionda ən güclü hava qüvvələrinə malik olan dövlətə çevrildi. Prezident İlham Əliyev ordunu modenləşdirdi, Azərbaycanın ərazi bütövlüyünü beynəlxalq səviyyədə müdafiə etdi və Qarabağın işğaldan azad olunması üçün iqtisadi gücü reallaşdırdı.

Azərbaycan Ordusunun qələbəsi ilə başa çatan dördgünlük Aprel döyüşləri (2016) hələ o dövrdə ordumuzun hansı gücə malik olduğunu ortaya qoydu [3, s.396]. Eyni zamanda illərlə haqqında "məğlubedilməzlik" mifləri yaradılan Ermənistan ordusunun hərb meydanında biabırçı məğlubiyyətə uğraması işğalçıya Qarabağ torpaqlarından birdəfəlik çıxarılacağının mesajını verdi.

Azərbaycan onilliklər boyu işğal altında olan ərazilərinin danışıqlar yolu ilə azad edilməsinə tərəfdar oldu, münaqişənin diplomatik yolla həllinə çalışdı. Eyni zamanda Azərbaycan hər zaman bəyan etdi ki, sülh danışıqları nəticəsiz qalarsa, torpaqlarımız döyüş yolu ilə işğaldan azad ediləcək. Lakin Ermənistana havadarlıq edən müxtəlif dairələr və dövlətlər Qarabağ münaqişəsinin yoluna düşməsini faktiki olaraq istəmirdilər. Ərazilərimizin işğal altında qalması Azərbaycan üçün qəbuledilməz idi.

2018-ci ilin mayında Naxçıvanda "Günnüt" əməliyyatı zamanı qəhrəman Azərbaycan ordusu Naxçıvanın erməni işğalı altında olan 11 min hektar ərazini düşməndən azad etdi [15, 20.12.25]. May ayının sonlarındakı əməliyyatlar nəticəsində Şərur rayonunun Günnüt kəndi və ətrafındakı yüksəkliklər, ardından da Qunut dağı və Ağbulaq yüksəkliyinin azad edilməsi ilə nəticələndi. İrəvan-Xankəndi avtomobil yoluna nəzarət etməyə imkan verən Qızılqaya dağında və Mehridağında Azərbaycan ordusunun mövqeləri irəli çəkildi, Dərələyəz mahalının Arpa kəndi ordumuzun nəzarəti altına keçdi.

2020-ci ilin iyul ayında Tovuz döyüşlərində Azərbaycan ordusu tərəfindən məğlubiyyətə uğrayan Ermənistan Respublikası öz mənfur niyyətindən əl çəkmədi və sentyabrın 27-də bütün cəbhəboyu ərazidə genişmiqyaslı təxribat törətdi. Həmin gün Azərbaycan ordusu bu təxribata əks-hücum əməliyyatları ilə cavab verdi. Beləliklə, 2020-ci sentyabrın 27-dən noyabrın 10-dək 44 gün davam edən və Azərbaycanın Böyük Qələbəsi ilə başa çatan Vətən müharibəsi başladı.

**Qələbə uğrunda mübarizə**

Azərbaycan uzun illər münaqişəsinin sülh yolu ilə həllinə, işğal edilmiş torpaqlarımızın azad edilməsinə nail olmaq üçün səylər göstərsə də Ermənistan ötən müddət ərzində işğalçılıq siyasətindən əl çəkməməsi, son illərdə isə bu ölkənin rəsmilərinin yeni ərazilər tutmaq iddialarını açıq şəkildə dilə gətirmələri, tez-tez təhrikedici açıqlamalar verməlri, 2019-cu il oktyabrın 3-də Rusiyanın Soçi şəhərində keçirilən "Valday" Beynəlxalq Diskusiya Klubunun XVI illik iclasının plenar sessiyasında Baş nazir Nikol Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" ifadəsi kimi təxribat xarakterli bəyanatı danışıqlar prosesinə ciddi zərbə vurdu. Həmin bəyanata cavabda Azərbaycan Prezidenti bildirdi ki, "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi" [19, 2023, 24 oktyabr]. Bu bəyanat bir il sonra öz təsdiqini tapdı.

Otuz ilə yaxın müddətdə davam edən səmərəsiz danışıqlardan sonra 2020-ci ildə Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, özünümüdafiə hüququndan istifadə etməyə məcbur oldu [14, 2025, 26 sentyabr]. Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi, hərbi sərkərdəlik qabiliyyəti sayəsində Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm Zəfər dövlətimizin gücünü, qüdrətini dünyaya bir daha göstərdi. Qısa müddət ərzində düşmən üzərində qazanılmış bu Zəfər nəinki ərazilərimizin otuz illik işğalına son qoydu, həm də son yüz ildə xalqımıza qarşı törədilən etnik təmizləmə, deportasiya və soyqırımı siyasətini birdəfəlik dayandırdı. Əldə olunmuş bu Zəfər ermənilərin və onların havadarlarının regionda həyata keçirdikləri iki yüz illik işğal strategiyasını darmadağın etdi. 44 günlük Vətən müharibəsi Azərbaycanın siyasi, iqtisadi, diplomatik və hərbi qüdrətini, həmçinin xalqımızın milli birliyini və sarsılmaz iradəsini dünyaya nümayiş etdirdi.

2023-cü ilin 19-20 sentyabr lokal antiterror tədbirləri ilə dövlətimiz öz suverenliyini tam təmin etdi. Azərbaycan Qarabağ bölgəsində 15 min nəfərdən artıq qanunsuz Ermənistan silahlı qüvvələrinin qalıqları və hərbi xuntanın silahlı birləşmələri suverenliyimiz üçün böyük təhdid idi. Həm də Qarabağ bölgəsində tikinti-quruculuq və abadlıq işləri, Böyük Qayıdış proqramının və irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsində onlar başlıca maneə idi. Qələbədən 3 il keçməsinə baxmayaraq, Ermənistan 10 noyabr Bəyanatının 4-cü maddəsini pozaraq, Qarabağda yerləşən silahlı qüvvələrini bölgədən çıxarmırdı, buradakı hərbi xuntaya siyasi və maliyyə dəstəyi göstərirdi [18, s.335-336]. Onlara qeyri-qanuni yollarla silah-sursat, hərbi texnika göndərirdi. Rusiyanın sülhməramlı qüvvələri isə bu hadisələrə seyrici mövqe sərgiləyirdi.

Ermənistan və qanunsuz hərbi xunta Qarabağdakı erməni əhalisinin Azərbaycan cəmiyyətinə reinteqrasiya olunmasına mane olurdu. Azərbaycan qanunlarına zidd olaraq bölgədə "prezident seçkiləri" keçirilirdi. Ərazilərimizə minalar basdırılır və mühəndis-istehkam qurğularının qurulmasına cəhd gösdərirdilər. Azərbaycanın Qarabağdakı erməni əhalisinə humanitar yardımını qəbul etmir, xarici ölkələrdən guya "humanitar yardım"lar qəbul etməyə cəhd göstərirdilər və s. Bütün bunlar Azərbaycan ordusu tərəfindən 23 saat müddətində lokal xarakterli antiterror əməliyyatı keçirməyə səbəb oldu. Nəticədə, müzəffər ordumuz tərəfindən 21 yaşayış məntəqəsi, o cümlədən 3 qəsəbə düşməndən azad edildi. Lokal antiterror tədbirləri nəticəsində erməni silahlı birləşmələri sentyabrın 20-də təslim oldu. 2023-cü il sentyabrın 28-də Xankəndindəki cinayətkar hərbi xunta "Dağlıq Qarabağ Respublikası" adlandırılan qondarma qurumun buraxıldığını elan etdi [3, s.422-423]. Beləliklə, Azərbaycan Respublikası Qarabağ bölgəsində konstitusiya quruluşunu və suverenliyini tamamilə bərpa etdi.

Bu tarixi Zəfərin əsas qəhrəmanı Prezident İlham Əliyevdir. Dövlət başçısı Vətən müharibəsi dövründə bütün təzyiqlərə mətanətlə sinə gərərək Azərbaycanın haqlı mövqeyini qətiyyətlə müdafiə etdi. Həsrətində olduğumuz torpaqlarımız azad olundu, ərazi bütövlüyümüz bərpa edildi. Bu, Azərbaycan tarixinə qızıl hərflərlə yazılan Qələbədir! Bu, bizim qəhrəman, igid əsgər və zabitlərimizin, Ali Baş Komandan, Prezident İlham Əliyevin siyasi qətiyyəti nəticəsində əldə edildi.

**Azad edilən ərazilər**

Azərbaycan Ordusu 44 günlük uğurlu döyüşlər nəticəsində 5 şəhər, 4 qəsəbə və 286 kəndi işğaldan azad etdi. Bu müddət ərzində Cəb-

rayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri və rayonun 3 qəsəbəsi, 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətində bir neçə strateji yüksəklik, Zəngilanda Sığırt, Şükürataz yüksəklikləri və daha 5 adsız yüksəklik azad olundu. Noyabrın 10-da imzalanmış üçtərəfli bəyanata əsasən, noyabrın 20-də Ağdam rayonu Azərbaycana təhvil verildi. Bununla da rayonun işğal edilmiş 73 faiz ərazisi, o cümlədən Ağdam şəhəri azad olundu. Həmin Bəyanata əsasən, noyabrın 25-də Kəlbəcər rayonu Azərbaycana qaytarıldı. Kəlbəcər şəhəri də daxil olmaqla, 147 yaşayış məntəqəsinin işğalına son qoyuldu. Dekabrın 1-də isə Laçın rayonu Azərbaycana təhvil verildi. Nəhayət, 2022-ci il avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bununla da üçtərəfli Bəyanata uyğun olaraq Ağdam, Kəlbəcər və Laçın rayonlarının sülh yolu ilə qaytarılması prosesi yekunlaşdı [15, 2023, 27. 09].

Azərbaycan ordusu işğaldakı torpaqlarımızı azad etməklə ərazi cəhətdən bütövləşdi, həm də milli qürurunu, milli ləyaqətini də bərpa etdi, erməni işğalçılarına hər cəhətdən əsl dərs verdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyev 2021-ci ilin 27 sentyabr tarixində xalqa müraciətində qələbənin əldə edilməsindən bəhs edərək demişdir: *"İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi. Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Dəfələrlə demişdim ki, düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz onu torpaqlarımızdan qovacağıq və belə də oldu. Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq, güc topladıq, bütün gücləri səfərbər etdik, ordumuzu gücləndirdik, ölkə iqtisadiyyatını gücləndirdik, ölkəmizin nüfuzunu qaldırdıq və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik. Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq"* [4, 2021, 09].

Müharibədən sonrakı dövrdə Ermənistan tərəfindən Xankəndi-Laçın yolu ilə Ermənistan ordusunun qalıqlarına və separatçılara silah-sursat, hərbi texnika göndərilməsi və təbii sərvətlərimizin daşınıb aparılması Azərbaycan dövlətini ciddi narahat edirdi. Prezident İlham Əliyevin qətiyyətli mövqeyi və ciddi səyləri nəticəsində 2023-cü il aprelin 23-də Laçın-Xankəndi yolunun başlanğıcında Nəzarət Buraxılış Məntəqəsi yaradıldı. Bundan sonra Ermənistanın Qarabağ ərazisində oynadığı məkrli oyunların qarşısı alındı. Nəticədə, respublikamızın ərazi bütövlüyü tam bərpa olundu. Ermənistanın Azərbaycanın ərazisinə qanunsuz daşımaları həyata keçirməsinin və sərvətlərimizin Qarabağdan daşınmasının qarşısı alındı. Laçın-Xankəndi yolunda hərəkətin şəffaflığı və təhlükəsizliyi təmin olundu.

XX əsrin 90-cı illərinin əvvəllərində Ermənistanın onu silahlandıran və ona hər cür hərbi-siyasi dəstək verən havadarlarının köməyilə işğal etdiyi 20 faiz torpaqlarımız düşməndən azad edilərək ərazi bütövlüyümüz bərpa olundu. Azərbaycan Respublikası öz ərazisi üzərində, eləcə də Qarabağ bölgəsində konstitusiya quruluşunu və suverenliyini tamamilə bərpa etdi.

Müharibə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müdrik dövlət başçısı, böyük sərkərdə, mahir strateq, bacarıqlı diplomat olduğunu bütün dünyaya nümayiş etdirdi.

2024-cü ilin aprel ayından başlayaraq Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasıyası və demarkasiyasına başlanıldı. Qazax rayonunun düşməndən azad olunan 4 kəndi (Bağanis Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı) öz əsl sahibinə - Azərbaycana qaytarıldı.

**Birinci Dövlət Proqramı, bərpa və quruculuq işləri**

Böyük Qələbədən sonra Qalib Liderimiz, cənab İlham Əliyev ölkəmizin yürütdüyü siyasi xəttin əsas hədəfləri sırasında işğaldan azad edilmiş ərazilərin bərpası, hərbi qüdrətin artırılmasını müəyyən etdi. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq olunan "Azərbaycan Respubli-

kasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair birinci Dövlət Proqramı"nın icrası istiqamətində uğurlu işlər həyata keçirilməyə başlanıldı [14, 2022, 18 noyabr].

Dövlət Proqramında təkcə soydaşlarımızın öz əzəli torpaqlarına, evlərinə qayıdışı nəzərdə tutulmur, eyni zamanda orda firavan yaşayışı, məşğulluğun təminatı, eləcə də turistik, iqtisadi gəlirlik baxımından həmin yerlərin potensialından maksimum istifadə əsas hədəflər kimi müəyyən edilirdi.

Birinci Dövlət Proqramında müəyyən edilmiş vəzifələr uğurla yerinə yetirilir. Proqramda nəzərdə tutulan vəzifələrin 80 faizindən çoxu yerinə yetirilmişdir. Azad olunmuş ərazilərin bərpası üçün 2025-ci il də daxil olmaqla 21,6 milyard manat vəsait ayrılmışdır. Azad olunmuş ərazilərdə 15 yaşayış məntəqəsinin ilkin mərhələdə inşası tamamlanmış, əhalinin yaşayış və əmək fəaliyyəti təmin olunmuşdur. Hazırda 27 yaşayış məntəqəsinin tikintisi, 25 yaşayış mətəqəsinin təmir-bərpa və quruculuq işləri həyata keçirilir, 21 yaşayış məntəqəsinin isə təməli qoyulub [4, 2025, 8 noyabr]. Füzuli, Zəngilan, Laçın, Şuşa, Xankəndi, Ağdam, Kəlbəcər, Cəbrayıl və b. şəhərlərdə çoxsaylı yaşayış evləri və sosial obyektlər istifadəyə verilib. Onlarla kənd yaşayış yerləri yenidən qurulub, insanlar yeni və müasir evlərə köçürülüb. Ağdam şəhərində yaşayış məhəllələri salınmış, yaxın günlərdə insanların müasir və yaraşıqlı evlərə köçürülməsi nəzərdə tutulur. Artıq insanların köçürülməsinə başlanılmışdır. Azad edilmiş şəhərlərin ərazisində Füzuli, Zəngilan və Laçın Beynılxalq Hava limanları yaradılmış, su və günəş elektrik stansiyaları qurulmuş, yollar çəkilmiş, istehsal müəssisələri insanların istifadəsinə verilmişdir. Köçürülən insanların xeyli hissəsinin məşğulluğu təmin edilib, yüzlərlə ailə biznesini qurub. Artıq 60 mindən çox insan azad edilmiş torpaqlarda yaşayır, çalışır və təhsil alır.

Torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüz və suverenliyimizin bərpa olunması uğrunda apardığımız savaşda qazandığımız Böyük Zəfərə görə adını tariximizə qızıl hərflərlə yazdırmış Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyev heç şübhəsiz, müasir tariximizin yeni dövrünün banisidir.

Yeni tarixi dövrdən bəhs edən Prezident İlham Əliyev demişdir: *"İndi isə yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm. Çünki son illərin tarixi onu göstərir ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi. Əlbəttə ki, bütöv Azərbaycan bu dövrə qədəm qoymuş, bütövləşmiş birlik nümayiş etdirmiş xalq böyük uğurlara imza atacaqdır... Güclü Azərbaycan bizim həmişə hədəfimiz olub. Əgər güclü Azərbaycan qurmasaydıq, əgər kimdənsə istər siyasi, istər iqtisadi sahədə asılı olmuş olsaydıq, heç vaxt ərazi bütövlüyümüzü bərpa edə bilməzdik"*[14, 2025, 27.09].

Qələbənin qazanılmasında, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa edilməsində Xalq, Ordu birliyi ilə yanaşı, Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin yüksək sərkərdəlik məharəti, diplomatiyası, qəti iradəsi və hərbi strategiyası mühüm rol oynadı.

**Nəticə**

XX əsr boyu ermənilər və Ermənistan dövləti Azərbaycan ərazisinə qarşı iddialar irəli sürmüş və müxtəlif yollarla bir sıra hallarda məqsədlərinə nail olmuşlar. Bunun əsas səbəbkarı Sovet İttifaqı rəhbərlərinin ikili siyasəti idi. Onlar Ermənistan dövlətinin iddialarına açıq və gizli haqq qazandırır və kömək edirdilər. Təsadüfi deyildir ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə 114 min kv. km ərazisi olan Azərbaycanın bir qədər sonra ərazisi 86,6 min kv. km-ə enmişdir. İtirilmiş ərazisinin böyük bir qismi Ermənistanın ərazisinə birləşdirilmişdir.

Bununla kifayətlənməyən Ermənistan XX əsrin 90-cı illərində SSRİ-də yaranmış vəziyyətdən istifadə edərək Dağlıq Qarabağ ərazisini Ermənistan Respublikasına birləşdirməyə başlamışlar. Yenə SSRİ rəhbərliyi, sonra isə RSFSR rəhbərləri hər vəchlə onlara dəstək vermişlər. Nəinki siyasi dəstək vermişlər, həm də silah-sursatla kömək göstərmişlər.

Azərbaycan rəhbərlərinin səriştəsizlikləri, qəti mövqelərini ortaya qoya bilməmələri, Moskvanın qeyri-qanuni addımlarına itaət etmələri, ordu quruculuğuna lazımi diqqət yetirməmələri və hakimiyyət üstündə çəkişmələr Azərbaycanın Dağlıq Qarabağ və onun ətrafın-

dakı 7 rayonunun Ermənistan tərəfindən işğalına səbəb oldu.

BMT-nin Təhlükəsizlik Şurası 1993-cü ildə Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərindən tam, dərhal və qeyri-şərtsiz çıxmaları haqqında 4 qətnamə qəbul etsə də, Ermənistan dövləti buna heç əhəmiyyət vermədi.

Problemi həll etmək üçün ATƏM (sonra ATƏT) də Minsk qrupunun həmsədrliyini yaratdı. Sonrakı hadisələr göstərdi ki, ATƏT problemi həll etmək yox, onu yubatmaq və Ermənistanın xeyrinə həll etmək istəyirdi.

Azərbaycan prezidentləri Heydər Əliyev və İlham Əliyev bunu bildiklərindən danışıqlarda iştirak etməklə yanaşı, Azərbaycan Respublikasının iqtisadi potensialını, hərbi gücünün artırılması qayğısına qalırdılar. Bütün Beynəlxalq tədbirlərdə, aparılan danışıqlarda qəti olaraq bildirirdilər ki, Azərbaycanın bir qarış da olsa işğal edilmiş torpaqları işğal altında qalmamalıdır, onlar azad edilməli, Ermənistan hərbi qüvvələri bu ərazilərdən çıxmalıdır. Yox əgər bu baş tutmasa, onda Azərbaycan başqa yollarla buna nail olacaqdır. ATƏT-in həmsədrləri isə bildirdilər ki, Qarabağ probleminin həlli ancaq sülh yolu ilə ola bilər. Sülh danışıqlarının isə heç bir nəticəsi olmurdu.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin BMT tribunasında, ATƏT-in həmsədrləri ilə görüşlərində, beynəlxalq tədbirlərindəki çıxışlarında "Azərbaycan torpaqları işğal altında qalmamalıdır" çağrışları öz müsbət həllini tapdı. Ermənistanın təxribatçı hərəkətlərinə cavab olaraq Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-də əks-hücuma başladı və 44 gün içərisində ərazilərimiz böyük bir hissəsini azad etdi. Lokal antiterror əməliyyatı nəticəsində isə terrorçu qruplaşmalar torpaqlarımızdan qovuldu. Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Ordu xalq birliyi və Ali Baş Komandan İlham Əliyevin sərkərdəlik məharəti və uzaqgörən diplomatiyası qələbəni təmin etdi.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının tarixi. Üç clddə. I cild. Azərbaycanın dövlət müstəqilliyinin bərpası və ilk dövrü (1991-1993). Bakı: Elm, 2022, 432 s.
2. Azərbaycan Respublikasının tarixi. Üç cilddə. II cild. Azərbaycan Respublikasının Heydər Əliyev epoxası (1993-2003). Bakı: Elm, 2022, 448 s.
3. Azərbaycan tarixi. Yenilənmiş VI nəşri. Bakı: Füyuzat, 2024, 448 s.
4. "Azərbaycan" qəzeti. Müxtəlif illər
5. Əhmədov, E. Ermənistanın Azərbaycana təcavüzü: Təhlili xronika (1987-2011). Ensiklopedik nəşr. Bakı, 2012, 912 s.
6. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir. 1-46-cı kitablar. Bakı: Azərnəşr, 1997-2013
7. Əliyev, İ.H. Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə əlaqədar andiçmə mərasimində nitq. 31 oktyabr 2003-cü il. – İnkişaf məqsədimizdir. 2-ci kitab. Bakı: Azərnəşr, 2009, 432 s.
8. Əliyev, İ.H. İnkişaf məqsədimizdir. 4-cü kitab. Bakı: Azərnəşr, 2009, 400 s.
9. Əliyev, İ.H. İnkişaf məqsədimizdir. 6-cı kitab. Bakı: Azərnəşr, 2011, 416 s.
10. Əliyev, İ.H. Azərbaycanın BNT Təhlükəsizlik Şurasına üzv seçilməsi münasibətilə bəyanat 25 oktyabr 2011-ci il. – İnkişaf məqsədimizdir. 48-ci kitab. Bakı: Azərnəşr, 2017, 424 s.
11. Əliyev, İ.H. Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə əlaqədar andiçmə mərasimində nitq / "Azərbaycan" qəzeti, 2024, 15 fevral
12. Hacıyev, İ.M. Hamının və hər kəsin Prezidenti / "Xalq qəzeti", 2023, 15 oktyabr
13. Həsənov, H.Ə. Top gurultusu altında diplomatiya. BMT TŞ-nin Qarabağ qətnamələri: gizlinlər və həqiqətlər. Bakı: TEAS Press, 2024, 544 s.
14. "Xalq qəzeti". Müxtəlif illər
15. "İki sahil" qəzeti. Müxtəlif illər.
16. Qasımlı, M.C. İlham Əliyev və müstəqil Azərbaycanın ilkləri (2003-2024). Bakı: Parlaq İmzalar, 2024, 304 s.
17. Qasımlı, M.C. Azərbaycan Respublikasının tarixi (1991-2021). [2 cilddə]. I cild (1991-2003). Bakı: BDU, 2021, 384 s.
18. Qasımlı, M.C. Azərbaycan Respublikasının tarixi (1991-2021). [2 cilddə]. II cild (1991-2003). Bakı: BDU, 2021, 520 s.
19. Mərdanov, M. Bütövlük günü / "525-ci qəzet", 2023, 24 oktyabr

20. Şabanov, M. Heydər Əliyev və Azərbaycanın ərazi bütövlüyü məsələsi. Naxçıvan: Əcəmi NPB, 2015, 176 s.

21. Şükürov, K. Azərbaycan tarixində İlham Əliyev epoxası/ "Xalq qəzeti", 2024, 1, 3, 5, 6 mart

**Summary**

**Ismayil Hajiyev**

**President Ilham Aliyev and the Restoration of Azerbaijan's Territorial Integrity**

The article analyzes, on the basis of factual materials, the socio-political conditions that emerged in the former USSR during the 1990s, as well as the dual policy pursued by the leadership of the Soviet Union and its support for Armenia. As a result of these factors, 20 percent of the territory of the Republic of Azerbaijan — Nagorno-Karabakh and the seven surrounding districts — were occupied by the Armenian armed forces.

Another significant factors contributing to the occupation of Azerbaijani territories are identified as the internal political situation within the republic at that time, including the struggle for power, insufficient attention to military development, the lack of state-level support for self-defense units, and a number of other objective and subjective factors.

Following the return of National Leader Heydar Aliyev to power for the second time, the article substantiates the activities of the Azerbaijani leadership aimed at achieving a ceasefire, conducting negotiations with international organizations, and strengthening Azerbaijan's position within the framework of the UN Security Council and the OSCE Minsk Group.

After Ilham Aliyev was elected President of the Republic of Azerbaijan, the intensification of negotiations, his firm and consistent position on the liberation of the occupied territories, his speeches at international organizations and various international forums, the strengthening of military development, and the consideration of alternative means in the event that peaceful efforts proved ineffective are examined. The article also addresses the Second Karabakh War, the local anti-terrorist operation, the restoration of Azerbaijan's territorial integrity and sovereignty, as well as the measures implemented within the framework of the First State Program.

***Keywords:*** *Azerbaijan, occupied territories, Heydar Aliyev, Ilham Aliyev, UN Security Council, OSCE Minsk Group, international organizations*

**Резюме**

**Исмаил Гаджиев**

**Президент Ильхам Алиев и обеспечение территориальной целостности Азербайджанской республики**

В статье на основе фактических материалов приведены обстоятельства, сложившиеся в 90-е годы XX века в бывшей СССР, оккупация армянскими вооруженными силами 20 процентов территории Азербайджана-Нагорного Карабаха и 7 прилегающих к нему районов – в результате двойной политики и поддержки Армении руководителем Советского Союза.

Еще одной причиной оккупации азербайджанских территорий стали условия, сложившиеся в республике: борьба за власть, недостаточное внимание к формированию армии, отсутствие государственной помощи группам самообороны и другие факторы.

После того как великий лидер Гейдар Алиев во второй раз пришел к власти, деятельность азербайджанского лидера была обоснована в достижении прекращения огня, переговорах с международными организациями и укреплении позиций Совета Безопасности ООН и Минской группы ОБСЕ.

Также были рассмотрены такие вопросы, как активизация переговоров после избрания Ильхама Алиева президентом, его твердая позиция в отношении освобождения оккупированных территорий, его выступления в международных организациях и структурах, а также на различных международных мероприятиях, усиление строительства армии, использование других путей, если мирный путь не состоится. Здесь также обсуждались Вторая Карабахская война, локальная антитеррористическая операция, достижение территориальной целостности и суверенитета, а также работа, проводимая в соответствии с Первой государственной программой.

***Ключевые слова:*** *Азербайджан, оккупированные территории, Гейдар Алиев, Ильхам Алиев, Совет Безопасности ООН, Минская группа ОБСЕ, международные организации*